

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 88 (23.500)

10 iyun 2020-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub.

Paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləri COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır.

Dövlətimizin başçısına məlumat verilib ki, üç modul tipli xəstəxanadan biri Bilgəh qəsəbəsindəki 28 saylı Bilgəh birləşmiş şəhər xəstəxanasına, digər ikisi isə Sumqayıt şəhərində 1 saylı şəhər xəstəxanasına və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxanaya təhkim olunub. Hər cür şəraitin yaradıldığı, ümumilikdə, 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həkim kollektivi ilə görüşüblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltiflərin və mükafatların təqdimatı olub

Ulu öndər Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın qurtuluş tarixidir. ***“Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur”***, – deyən ümummilli liderimizin müəyyənləşdirdiyi inkişaf strategiyası bütün sahələrdə kompleks islahatların həyata keçirilməsinə səbəb olmuşdur. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasında da dahi şəxsiyyətin yolunun uğurla davam etdirilməsi yüksək inkişaf göstəriciləri – sabitlik, rifah və insan amilinə verilən dəyərlə xarakterizə olunur. Öz sahələrində fərqlənənlərin əməyinin qiymətləndirilməsi də bu tədbirlərin davamıdır.

İyunun 9-da – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının “Hərbi xidmətlərə görə” medalının və Prezident mükafatlarının təqdimat mərasimi keçirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları və mükafat alanları təbrik edərək demişdir: Təltif olunmaq fərqlənmək deməkdir. O şəxslər fərqlənir ki, onlar başqalarından daha çox səy göstərir, çalışır və öz işlərini nümunə səviyyəsinə yüksəldirlər. Təltiflər və Prezident mükafatları əlamətdar bir gündə təqdim olunur. 1993-cü il iyunun 9-da ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının, o cümlədən ziyalıların tələbi ilə Naxçıvandan Bakıya qayıtmış, iyunun 15-də isə Azərbaycan Ali Sovetinin Sədri seçilmişdir. Bununla da 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Belə bir əlamətdar gündə təltif və mükafatların təqdim olunması ölkəmizdə uğurla davam etdirilən Heydər Əliyev siyasətinin bəhrəsidir. Bu gün Azərbaycan inkişaf edir. Ölkəmizdə sabitlik və rifah var, fərqlənənlərin əməyi qiymətləndirilir. Bu nümunəni əsas götürən hər bir şəxs isə dövlətinə, xalqına və işinə sədaqətli olur, öz vəzifələrini layiqincə yerinə yetirir.

Ali Məclisin Sədri təltif olunanları qarşıdan gələn 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri medalları və Azərbaycan Respublikası Prezidentinin mükafatlarını təqdim etmişdir.

Prezident mükafatına layiq görülən Vüsal Rzayev, Cahangir Qurbanov, İbad Nəbiyev, Ceyhun Süleymanlı əməklərinə verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq etmişlər. Prezident mükafatçıları bütün sahələrdə əldə edilən nailiyyətlərin uğurla həyata keçirilən Heydər Əliyev siyasi xəttinin nəticəsi olduğunu vurğulamış, bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi naminə səylə çalışacaqlarına söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan duzunun istehsal imkanları genişləndirilir





***Naxçıvanda tarixən yaxşı gəlir gətirən özünəməxsus məşğulluq sahələrindən biri hesab olunan duzçıxarma ənənəsini müasir dövrümüzdə standartlara əsaslanan istehsal prosesi əvəzləyib.***

Artan tələbat, eyni zamanda ixrac imkanları nəzərə alınaraq ötən ildən etibarən Duzdağda 15 milyon ton duz ehtiyatı olan yeni şaxtanın tikintisinə başlanılıb, artıq müəyyən olunmuş duz layına qədər çəkiləcək 390 metr uzunluğunda tuneldə işlər yekunlaşmaq üzrədir. Şaxta əvvəlkilərdən fərqli olaraq tam standartlara uyğun texnoloji vasitələrlə inşa edilir, burada 3 metr eni, 73 metr hündürlüyündə havalandırma sistemi quraşdırılacaq ki, bu da içəridə yarana biləcək tozun bayıra sorulmasına imkan verəcək, həmçinin duzun nəm çəkməsinin qarşısını alacaq. Şaxtada tektonik hərəkətlər zamanı hər hansı xoşagəlməz halların baş verməməsi üçün 10 metr uzunluğunda qəlib də quraşdırılacaq. Texniki təhlükəsizlik qaydalarına tam cavab verəcək yeni şaxtaya ağır texnikalar daxil olaraq istənilən qədər xammalı daşıya biləcək ki, bu həm vaxt itkisinin qarşısını alacaq, həm də mədən işçilərinin əməyini xeyli yüngülləşdirəcək.

Bundan başqa, şaxtadan, təxminən, 3 kilometrlik məsafədə duzun istehsal və satış həcmini artırmaq məqsədilə yeni müəssisə də qurulur. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları artıq istehsal obyektinin təməlatma işlərini həyata keçiriblər. Müasir avadanlıqlarla təmin ediləcək müəssisədə istehsal prosesi avtomatlaşdırılacaq və illik istehsal gücü 15 min ton olacaq. Layihəyə əsasən 4580 kvadratmetr ərazini əhatə edəcək zavodda daşduz, yeni hazır məhsul anbarı, qırıcı və ayırma bölməsi, 5 mərhələni əhatə edəcək istehsal sahəsi, eləcə də məhsulun yuyulması üçün hovuzlar, paketləmə materialı anbarı, işçilərin rahatlığını təmin edəcək yeməkxana və mətbəx fəaliyyət göstərəcək. Şaxtadan çıxarılan məhsul müəssisənin “Daşduz” adlanan hissəsinə yığılacaq, daha sonra qırıcı və ayırma zonasında müxtəlif ölçülərə bölünərək istehsal sahəsinə ötürüləcək. Burada duzun yuyularaq tam nəfis şəklə salınması üçün hovuzlar da quraşdırılacaq ki, bu da hazır məhsulun keyfiyyətinə böyük mənada zəmanət verəcək.

Qeyd edək ki, yeni müəssisədə müasir üsullarla istehsal olunacaq Naxçıvan duzunun gələcəkdə ölkə daxilini təmin etməklə yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulub.

**✍ Nail ƏSGƏROV**

## İşğaldan azad edilən ərazilərdəki əkin sahələrinə aqrotexniki qulluq göstərilir

*Muxtar respublikanın Sədərək rayonunun 90-cı illərdə Ermənistanın işğalına məruz qalan, bu gün isə ordumuzun nəzarətində olan şərab zavodunun ətrafındakı ərazilərdə qarğıdalı əkini sahələrinə aqrotexniki qulluq göstərilir.*





Rayonun Heydərabad qəsəbəsinin ərazisində olan 65,5 hektar sahədə alaq otlarına qarşı dərmanlama işləri aparılıb. Sahələrə ikinci dəfə yemləmə gübrəsi verilərək şırım açılıb və hazırda şırım üsulu ilə suvarma aparılır.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordunun 2018-ci ildə apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində Günnüt kəndi ilə birlikdə 11 min hektardan artıq ərazi düşməndən azad edilib, mühüm əhəmiyyətə malik strateji yüksəkliklər ordumuzun nəzarətinə keçib. Əlahiddə Ümumqoşun Ordu Sədərək istiqamətində də müdafiəni uğurla təşkil edib. Ərazilərin etibarlı qorunması, minalardan təmizlənməsi əhalinin də rahat yaşayışına və lazımi təsərrüfat işlərinin görülməsinə stimul verib.

Burada əkilən məhsuldar torpaqların suvarılması üçün müasir suvarma qurğuları da işlək vəziyyətə gətirilib, 3 artezian quyusu bərpa olunub. Əraziyə yeni yol və elektrik xətləri çəkilib.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması Sədərək rayon sakinlərini də sevindirir. Rayonda aqrar sahənin inkişafı kənd təsərrüfatı ilə məşğul olan insanlara stimul verir.

**Xəbərlər şöbəsi**



***Ölməz sənətkar Rəşid Behbudovun ifasında yaddaşımızda həmişəlik kök salmış məşhur "Badamlı" mahnısının bu sözləri doğma diyarımızın hər kəsə yetəcək nemətlərlə zəngin olduğunu, sanki nə zamanlardansa əzbərlətmişdi bizə. Bu gün isə adıyla-dadıyla şöhrəti bütün dünyaya yayılmış Naxçıvanın "Badamlı" mineral suyunun təkcə Şahbuz torpağının deyil, bütün ölkəmizin milli sərvəti kimi tanıdılması və istifadəsi də bugünkü müstəqil inkişafımızın bir bəhrəsidir.***

"İxrac ili" – 2020

# Badamlı – dərdlərin dərmanı, belə su de hanı?

Ölkəmizdə elə məhsullar vardır ki, onların bir qismi daimi olaraq insanların yaddaşında yaxşı qalır və istər daxili, istərsə də "Made in Azerbaijan" brendi ilə xarici bazarlardakı reklamı onlara həmişə uğur qazandırır. Bu mənada, hələ 1947-ci ildən təkcə respublikamızda deyil, keçmiş Sovetlər Birliyinin hər yerində özünə geniş alıcı kütləsi tapmış Naxçıvanın "Badamlı"sı da artıq zaman gəldi ki, elin sərvəti kimi hər damlasına qədər bu torpağın əzəli sakinlərinin rifahına, süfrələrinin bəzəyinə və ölkəmizin tanıtım markasına çevrildi. İndi dağlar qoynundakı Şahbuzun Badamlı qəsəbəsində kristal kimi təmiz təbiətin müasir texnologiya ilə bir araya gəldiyi yeni zavodda doldurulan bu su Rusiyadan Qazaxıstana, Çindən Ərəb ölkələrinədək çox geniş coğrafiyada hər kəsin ürəyini sərinlədir. Bundan başqa, ötən illərdə Naxçıvana səyahət edən turistlərin yerli mineral su kimi "Badamlı"nı şərbət kimi içdiyini görəndə bunun ölkəmiz adına necə gözəl canlı reklam olduğunu da görürdük. Odur ki, Naxçıvanda "İxrac ili" elan olunmuş 2020-ci ildə "Badamlı" mineral suyunun qablaşdırılması üçün yeni zavodun tikilməsinə də bu məqsədlərə xidmət edən mühüm layihə kimi baxmaq mümkündür.







Ötən ayın sonlarında "Badamlı" Mineral Sular Zavodu istifadəyə verilərkən bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında yeni zavodun tikilməsinə xarici bazarda "Badamlı" suyuna tələbatın artması ilə əlaqədar zərurət yarandığını, yeni zavod vasitəsilə Naxçıvanın bu brend məhsulunun illik istehsalının artırılmasının ixrac baxımından əhəmiyyətliliyini vurğulamışdır. Ali Məclisin Sədri fəaliyyətin səmərəli qurulmasının gələcəkdə yeni iş yerlərinin açılmasına və digər təbii sərvətlərimizdən də səmərəli istifadəyə imkan verəcəyinin bildirərək demişdir: ***"İqtisadiyyat Nazirliyi aid qurumlarla birlikdə muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadəni təmin etməli, yeni müəssisələr fəaliyyətə başlamalı, daxili tələbat ödənilməli və ixracyönümlü məhsul istehsal olunmalıdır. Çünki təbii sərvətlərdən səmərəli istifadə inkişaf deməkdir. Bu gün muxtar respublikada əsas tikinti materiallarına, mineral və içməli suya olan tələbat yerli istehsal hesabına ödənilir. 2009-cu ildən etibarən "Badamlı" mineral suyu 5 ölkəyə ixrac olunur. Lakin yeni zavodun istifadəyə verilməsi muxtar respublikada ixrac imkanlarının genişlənməsinə, büdcə daxilolmalarının artmasına və digər istehsal sahələrinin yaranmasına da imkan verəcəkdir. Zavodda Fransanın "Sidel" şirkətinin ən müasir avadanlıqları quraşdırılmışdır. Bir sözlə, "Badamlı" Mineral Sular Zavodu muxtar respublikanın sərvətidir. Ona görə də kollektiv qurulan avadanlıqlardan və yaradılan şəraitdən səmərəli istifadə etməli, işçilərin təminatı və mütəxəssislərlə işə diqqət artırılmalıdır".***

Naxçıvan mineral sularla zəngindir. Hamının çox sevdiyi "Badamlı" mineral su yatağı isə 700 nəfərdən artıq sakinin yaşadığı Badamlı qəsəbəsinin cənub-qərbində, dəniz səviyyəsindən 1274 metr yüksəklikdə yerləşir. Badamlıya gedərkən Naxçıvan-Şahbuz avtomobil yolundan Badamlı qəsəbəsinədək aparan yol və ətrafındakı modern quruculuq müasirliyi ilə diqqəti cəlb edir. Suyun yatağından son alıcısına qədər çatdırılması üçün yaradılmış 42,5 min kvadratmetr ərazidəki yeni zavod da müasirliyin bir nümunəsidir. Təmizlik şərtlərinin ən yüksək səviyyədə gözlənildiyi müəssisədə tamamilə əl dəymədən qablaşdırılan müxtəlif çeşidlərdəki qazlı və qazsız "Badamlı" mineral suları bir-birinin ardınca iritonnajlı yük maşınlarına yüklənərək ticarət məntəqələrinə göndərilir. Burada olarkən istehsalat müdiri Rəfail Əliyev dedi ki, əvvəlcə illik istehsal gücü 60 milyon şərti butulka olmuş bu müəssisənin illik istehsal gücü indi 150 milyon şərti butulkaya çatıb. O qeyd etdi ki, hazırda 14 çeşiddə və müxtəlif qablaşdırmalarda su istehsal edilir ki, bu da yatağın su ehtiyatından 100 faiz istifadə olunması deməkdir. Zavodda Türkiyənin "Ektem" və Fransanın bu sahədə dünya üzrə məşhur "Sidel" şirkətlərinin ən müasir avadanlıqları quraşdırılmışdır. Ümumilikdə, istehsal, filtrasiya, kompressor bölmələri, xammal, hazır məhsul, ehtiyat hissə, nümunə məhsullarının saxlanılması anbarları və laboratoriya bölümlərinin olduğu zavodda keyfiyyət tələblərinə ən ciddi şəkildə diqqət göstərilir. Belə ki, hər saatbaşı məhsuldan götürülən nümunə əsasında suyun analizi aparılır və məlumatlar toplanılır.



72 işçinin çalışdığı "Badamlı" Mineral Sular Zavodunda insanların rahat və təhlükəsiz işi, sosial-məişət şəraiti üçün ən kiçik detala belə, diqqət yetirilir. İstehsal sahəsinə daxil olan hər bir şəxsin mütləq qaydada dezinfeksiya prosedurundan keçməsi, işçilərin xüsusi geyimlə təmin olunması, elə zavodun həyətində və yüklənən maşınlarda müşahidə olunan təmizlik müştərilərdə Naxçıvan məhsullarına marağın təsadüfi olmadığını bir daha sübut edir.

Burada işlə təmin olunmuş yerli sakin Ceyhun Hüseynov minnətdarlıqla qeyd etdi ki, təmin olunduqları normal əməkhaqqı ilə yanaşı, müəssisədə yaradılmış çay, yemək, nəqliyyat servisləri, verilən xüsusi geyim, avadanlıqların işlədilməsi üzrə aparılan təlimlər onların bu zavodda məhsuldar işləməsi üçün bütün imkanları yaradır.

***Qeyd edək ki, "Badamlı" Mineral Sular Zavodunun Naxçıvan və Bakı şəhərlərində satış bazaları yaradılıb və praktik olaraq ölkəmizin hər yerində satışı həyata keçirilməkdədir. İndi əvvəlki kimi daha dadlı, daha tamlıdır "Badamlı".***

*İç onu ürəyin qoy sərin olsun!*

**Əli CABBAROV**

---

***Bolmeyvəli bağları, təmiz havası, saf suyu, zəngin təbiəti, bərəkətli torpağı var yurdumun. Bunun fərqində olan zəhmətkeş insanlarımız ta qədimdən torpağa ruzi-bərəkət mənbəyi kimi baxıb, qarşısında baş əyərək alın tərini axıdıb, zəhmətlərinin qarşılığını artıqlaması ilə alıblar. Buna görə də deyiblər ki, torpaq bütün sərvətlərin ən qiymətlisidir. Əcdadlarımızın bizə miras qoyduğu kənd təsərrüfatı ənənələrini layiqincə yaşadan bu qədim diyarın insanları əkin-biçin işləri, heyvandarlıqla məşğul olmaqla gün-güzəranlarını daha da yaxşılaşdırıb, məhsul bolluğuna nail olublar. Yaradılan əlverişli şəraitdən yetərincə bəhrələnən zəhmətkeşlərdən biri də Babək rayon Naxışnərgiz kənd sakini, əkinçilik və heyvandarlıqla məşğul olan Qəzənfər Qurbanovdur. O öz təsərrüfatında əkinçiliklə yanaşı, 800-ə yaxın qoyun-quzu saxlayır.***

Ailə təsərrüfatlarımız

# Yaradılan şərait təsərrüfatçılarımıza firavan həyat bəxş edib

Müsahibim deyir, elə ki yaylaq vaxtı gəldi, qışın soyuğundan yaxa qurtardıq, bizim üçün ilin qızğın işi o zaman başlayır. Ailəmlə birlikdə həm qoyun-quzunu yaylağa aparır, həm də əkin qayğıları ilə məşğul oluram.

Qəzənfər Qurbanov deyir: – Allah bütün ölənlərə rəhmət eləsin, mənim rəhmətlik babam bizə öyüd-nəsihət edən zaman deyərdi ki, ay oğul, kənddə yaşayırsansa, toyuq-cücən, malın-heyvanın olmalıdır. Əgər kənd həyatına uyğunlaşıb zəhmətə qatlaşaraq öz işini qura bildinsə, bu artıq özünə gün-güzəran qurmusan deməkdir.

90-cı illərin ağır günləri yaxşı xatirimdədir. Həmvətənlərimiz öz ruzilərini başqa ölkələrdə axtarmağa məcbur olmuşdular. Ancaq müstəqillik əldə etdikdən sonra hər şey dəyişildi. Artıq zəhmət çəkib çörəkpulu qazanmaq üçün yaxın-uzaq ellərə də üz tutmağa gərək qalmayıb. Şükür Ulu Yaradana, bu gün dövlətimiz torpaq əkənə gübrəsini, suyunu, texnika və texnoloji avadanlığını verir, bir sözlə, qol-qanadından tutur, deyir, güzəranını qur. Özü də bu kömək, dəstək təkcə torpaq mülkiyyətçisinə yox, təsərrüfatın bütün qollarında çalışanlara aiddir. İndi zəhmətlə, işgüzarlıqla hər şeyə nail olmaq mümkündür. Dövlətimiz tərəfindən zəhmətsevər insanlara verilən dəstək bizi öz



təsərrüfatımızı daha çox genişləndirməyə, işgüzarlığa sövq edir. Mən də bu dəstəkdən, köməkdən bəhrələnə bildim. 20 il bundan öncə təsərrüfatımı yaratmağa başladım. Bir neçə il bundan öncə isə tövlə yaxşı şəraitdə olmadığından qoyun-quzunun sayını artıra bilmirdim. Ötən il götürdüyüm kredit hesabına kəndimizdən kənarda böyük bir tövlə tikdim. Bu səbəbdən mal-qaranı xeyli artıra bildim. Artıq 800-ə yaxın xırdabuynuzlu və 6 baş iribuynuzlu heyvan saxlayıram.

Təsərrüfatında süni mayalanma yolu ilə artıq bir neçə baş buzovun doğulduğunu bildirən təsərrüfatçı bu yolla doğulan hər buzova görə dövlətimiz tərəfindən 100 manat subsidiyanın verilməsindən də razılıq etdi. Göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Müsahibim söyləyir ki, ailəm, uşaqlarım bir yerdə çalışaraq bu günlərə gəlib çıxmışıq. Həttа yaylaqdakı ərazidə şəxsi vəsaitim hesabına su quyusu da vurdurmuşam. Mövsümdə Ordubad, Culfa yaylaqlarına üz tuturuq. Şükür olsun, orada da yaxşı şəraitimiz var. Bizim iş elədir ki, gərək əziyyət çəkəsən, bəhrəsini də görəsən. Bu gün təsərrüfatımızda keyfiyyətli məhsul istehsal edərək daxili bazarın bolluğuna töhfə veririk. Əldə etdiyimiz süd, qatıq, yundan qohum-qonşuya da pay tutduqdan sonra tələbatdan artığını bazara çıxarıram. Ailə təsərrüfatçısı kimi mən də Naxçıvanda keçirilən yarmarkalarda, festivallarda iştirak edərək istehsal etdiyim məhsulları ürəyimcə satıb yaxşı gəlir əldə edə bilirəm.

Süd məhsullarına olan tələbatın çox olduğunu deyən təsərrüfat adamı söylədi ki, istehsal etdiyi süd, qatıq, pendiri Azərbaycanın digər bölgələrinə də göndərir. Bununla da adla deyilən Naxçıvan məhsullarına olan tələbatın ödənilməsinə qismən də olsa, köməklik etmiş olur, həm də dolanışığını xeyli yaxşılaşdırır. Bununla yanaşı, gələcəkdə Sahibkarlığın İnkişafı Fondundan dəstək alaraq yeni emal müəssisəsi yaratmaq, pendir, qatıq, ayran, şor istehsalına başlamaq fikrindədir.

Qəzənfər Qurbanov onu da deyir ki, heyvandarlıqla yanaşı, uzun illərdir ki, əkinçiliklə də məşğulam. Ümumiyyətlə, təsərrüfat sahələri bir-biri ilə bağlıdır. Əgər heyvandarlıq təsərrüfatın varsa, mütləq əkinçiliklə də məşğul olmalısan ki, qoyun-quzunu yemlə təmin edə biləsən.

Dövlət tərəfindən hər zaman əməyinə qiymət verildiyini, dəstək göstərildiyini bildirən müsahibim deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətinə görə "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə təltif olunub. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyinin sədr müavini seçilib. Zəhmət adamı bütün bu sadaladıqlarından əməyə, insan amilinə verilən dəyər kimi minnətdarlıqla söz açır.

Qəzənfər Qurbanov ötən illərdə Naxışnərgiz bələdiyyəsinə məxsus vaxtilə selov olduğu üçün iri daş parçalarının yığışdığı bir ərazini təmizləyərək əkin dövriyyəsinə qatıb və fəaliyyətini bu gün də davam etdirir: "Təcrübəmə əsaslanaraq düşündüm ki, bu torpağı əkinəyararlı hala gətirmək heç də çətin deyil. Rayondan texnika dəstəyi alaraq daşları təmizləyib, burada 3 hektar sahədə taxıl əkini aparmışam. Heydər Əliyev Su Anbarının sol sahil kanalı başımızın üstündən keçir. İndi nəinki Naxışnərgiz, hətta ətraf kəndlərin torpaqları belə, bu kanaldan qidalanır".

Müsahibim son olaraq qeyd etdi ki, bu gün qazancım hesabına uşaqlarıma gələcək qurmuşam, yaraşıqlı ev-eşik, avtomobil sahibiyəm. Bir yandan da sosial qayğılarımız uğurla həll olunub. Övladlarımız yaxşı şəraiti olan məktəbdə təhsil alırlar. Buna görə qurub-yaradanlar sağ olsunlar.

***Bu gün muxtar respublikada göstərilən dövlət qayğısı nəticəsində yüzlərlə yeni ailə təsərrüfatı fəaliyyətə başlayıb, bu isə özlüyündə bundan sonra da kiçik və orta sahibkarlığın inkişafına stimul verəcək.***

**Pərviz HACILI**

# “Gəmiqaya qayaüstü rəsmləri” kitabının təqdimatı olub

*Dünən “Gəmiqaya” Tarix-Bədii Qoruğu və Muzey binasında “Gəmiqaya qayaüstü rəsmləri” adlı kitabın təqdimat mərasimi keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev 2002-ci ilin 12 avqustunda AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Naxçıvanın qədim və zəngin tarixini, Gəmiqaya abidələrinin öyrənilməsini müqəddəs və vacib vəzifə kimi qarşıya qoymuşdur.



Qeyd edilib ki, xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksi daşüstü rəsmlərlə zəngindir. Bu abidələrin tədqiqinə 1970-ci illərdə ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” 2001-ci il 26 aprel tarixli Sərəncamına əsasən elmi-tədqiqat işlərinin aparılması üçün “Gəmiqaya” ekspedisiyası təşkil edilib, yaradılan şərait nəticəsində 2002-ci il iyun ayının 10-dan başlayaraq arxeoloji tədqiqatlar daha da genişləndirilib. Muxtar respublika rəhbəri 2001, 2002, 2005 və 2013-cü illərdə Gəmiqayaya səfər edərək qayaüstü rəsmlərin yayıldığı ərazilərlə tanış olub, ərazidə tədqiqat aparan alimlərlə görüşüb, tədqiqat işləri ilə bağlı tövsiyə və tapşırıqlarını verib. Ekspedisiya Gəmiqaya abidələrinin qorunub saxlanması, ardıcıl və sistemli şəkildə öyrənilməsi üçün aparılan tədqiqat işlərinin nəticəsi barədə elmi rəy hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edib.

Diqqətə çatdırılıb ki, 2006-cı ildə Gəmiqaya Tarix-Bədii Qoruğu, 2013-cü ildə “Gəmiqaya” Muzeyi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən 2016-cı ildə “Gəmiqaya” Tarix-Bədii Qoruğunda və ona bitişik ərazilərdəki daşüstü təsvirləri ilə bağlı tədqiqat işləri aparılıb. Tədqiqat nəticəsində, ümumilikdə, 136 hektar ərazidə 2040 daş üzərində 7477 təsvir müəyyənləşdirilərək qeydiyyata alınıb. Gəmiqaya abidələrinin elmi təsvirindən və fotoşəkillərdən ibarət fundamental nəşr – albom-kataloq hazırlanıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, Gəmiqaya abidəsinin geniş tədqiqinə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilkin mərhələsində başlanılıb və ümummilli liderin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bu sahəyə yenidən diqqət artırılıb. Muxtar respublikamızda Gəmiqaya abidələrinə dövlət qayğısı həmişə diqqət mərkəzində olub. Gəmiqaya təsvirlərinin tədqiqi sahəsində atılan ən mühüm addımlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamından sonra Gəmiqaya ərazisinə bir neçə dəfə elmi səfərlərin təşkil edilməsi, çoxlu təsvirlərin qeydə alınması, bir neçə monoqrafiya və çox sayda məqalələrin işıq üzü görməsidir. Ali Məclis Sədrinin tapşırığına əsasən 2016-cı ilin avqustunda Gəmiqayaya təşkil olunan yeni ekspedisiya ilə qeydə alınan təsvirlər sistemləşdirilib və onların əsasında bu gün təqdimat mərasiminə toplaşdığımız “Gəmiqaya qayaüstü rəsmləri” kitabı hazırlanıb. Qeydə alınmış təsvirlərin əsasında hazırlanmış yeni nəşr Gəmiqaya abidələrinə həsr olunmuş ən möhtəşəm və mükəmməl kitabdır.

İsmayıl Hacıyev Naxçıvan ərazisində tarixi-memarlıq abidələrinin tədqiqi, bərpası, mühafizəsi və bununla əlaqədar kitabların nəşr olunmasına göstərilən diqqət və qayğıya görə muxtar respublikanın ziyalıları, elm və təhsil işçiləri adından dövlətimizə minnətdarlıq edib.

Sonra AMEA-nın müxbir üzvləri – AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Fəxrəddin Səfərli və AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyev, “Gəmiqaya”ekspedisiyasının rəhbəri, sənətşünas



Nizami Alıyev, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Nazim Babayəli çıxış ediblər. Çıxışlarda tariximiz və milli-mənəvi dəyərlərimizin yaşadılmasına qiymətli töhfə olan kitabın üstünlükləri, tarixi abidədə aparılan tədqiqatlar barədə ətraflı məlumat verilib.

Bildirilib ki, yeni nəşrin əsas üstünlükləri ondan ibarətdir ki, ilk dəfə olaraq Gəmiqaya təsvirlərinin yerləşdikləri ərazilərin sahəsi çox dəqiqliklə hesablanıb, kitaba daxil olan təsvirlərin fotoşəkilləri qeydə alındığı ərazilərin ardıcıllığı üzrə verilib, hər bir şəklin altında daşın materialı, ölçüsü qısa təsvir olunub. Şərhlər kitabın digər materialları kimi üç dildə (Azərbaycan, rus və ingilis dillərində) verilib. Çıxış edənlər tarix və mədəniyyətimizə göstərilən böyük diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Sonda tədbir iştirakçıları “Gəmiqaya” Tarix-Bədii Qoruğu və Muzeyi ilə yaxından tanış olublar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə birlikdə hazırladığı, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan “Gəmiqaya qayaüstü rəsmləri” adlı nəfis tərtibatlı, yüksək poliqrafik keyfiyyətə malik yeni kitabın layihə rəhbəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur. Elmi redaktoru AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, müəllifi “Gəmiqaya” ekspedisiya qrupunun rəhbəri, sənətşünas Nizami Alıyev, fotolar və qrafik cızmaların müəllifləri Nizami Alıyev və Arzu Novruzov, dizayner Ziya Məmmədov, mətnlərin rus və ingilis dillərinə tərcüməçiləri filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı, Aidə Cəlilzadə, Bayram Əliyev və Fatimə İsmayıllıdır. Yeni nəşr Naxçıvanşünaslığa və milli tariximizə ən böyük töhfədir. Kitab Gəmiqaya təsvirlərinin tədqiqi tarixində xüsusi və mükəmməl mərhələ təşkil etməklə Azərbaycan sərhədləri çərçivəsindən çıxaraq dünya miqyasında geniş oxucu kütləsinin və elmi ictimaiyyətin diqqətini cəlb edə biləcəkdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Sonuncu kurs tələbələri üçün vakant yerlər və işə qəbulla bağlı onlayn seminar

Muxtar respublikada gənclərin işlə təminatı daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi hamiliyə verilmiş pedaqoji profilli ixtisasların məzunlarının işlə təmin olunmasına dəstək məqsədilə onlayn seminar keçirib.



Seminarda Naxçıvan Müəllimlər İnstitutunun 70-dən çox məzunu iştirak edib. Məzunlar ümumtəhsil məktəblərində vakant müəllim yerləri və işə qəbulla bağlı məlumatlarla tanış olublar.

Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov qeyd edib ki, keçirilən seminarın əsas məqsədi pedaqoji profilli ixtisasların buraxılış kurs tələbələrinin muxtar respublikanın ümumtəhsil müəssisələrində olan vakant müəllim vəzifələri ilə tanış edilməsi, onlara gənc müəllimlərin işə qəbulu qaydaları ilə bağlı ətraflı məlumatların verilməsidir.

Sonra Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının baş məsləhətçisi Şikar Hüseynov məzunlara slaydlar vasitəsilə muxtar respublika ümumtəhsil məktəblərində olan vakant müəllim vəzifələri (dərs saatları ilə birlikdə), Naxçıvan Muxtar Respublikasında müəllimlərin ümumtəhsil müəssisələrinə işə qəbul qaydaları və pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər haqqında geniş məlumat verib.

Qeyd edək ki, qrafikə uyğun olaraq iyunun 10-da “Naxçıvan” Universitetinin 70, iyunun 11-də isə Naxçıvan Dövlət Universitetinin 70 məzunu ilə onlayn seminar keçiriləcəkdir.

# Fənn olimpiadasına yekun vurulub



Dünən Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə pandemiya ilə əlaqədar təxirə salınmış respublika fənn olimpiadasının respublika mərhələsinin Azərbaycan dili və ədəbiyyat, coğrafiya, tarix, kimya, informatika və biologiya fənləri üzrə final turu keçirilib. Olimpiadada bütün fənlər üzrə sualları cavablandırmaq üçün şagirdlərə 4 saat vaxt verilib.

Fevral ayında keçirilmiş respublika mərhələsinin yarımfinal turunun nəticələrinə əsasən muxtar respublika üzrə uğur qazanmış 87 şagirddən dünən keçirilən final turunda Azərbaycan dili və ədəbiyyat fənni üzrə 18, coğrafiya fənni üzrə 12, tarix fənni üzrə 11, kimya fənni üzrə 10, informatika fənni üzrə 2, biologiya fənni üzrə isə 11 olmaqla, ümumilikdə, 64 şagird iştirak edib.

Qeyd edək ki, iyunun 5-də fizika və riyaziyyat fənləri üzrə keçirilmiş final turunda 23 muxtar respublika məktəblisi bilik və bacarığını nümayiş etdirilib. Final turların təşkili və keçirilməsi zamanı karantin rejiminin tələblərinə ciddi riayət olunub. İnanırıq ki, məktəblilərimiz ötən illərdə olduğu kimi, bu il də yüksək nəticələr göstərəcək və muxtar respublika məktəblərinin adlarını respublika üzrə ön sıralarda tutacaqlar.

Onu da xatırladaq ki, ötən tədris ilində keçirilən respublika fənn olimpiadasında Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla, 8 fənn üzrə şagirdlərimizdən 2-si qızıl, 6-sı gümüş, 17-si isə bürünc olmaqla, 25 medal qazanıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Xalq çalğı alətləri kafedrasında onlayn ustad dərsi keçirilib.*

# Növbəti onlayn ustad dərsi

70 müəllim və tələbənin iştirak etdiyi “Bayatı-Şiraz muğamı” mövzusunda onlayn dərsi Azərbaycan Respublikasının Əməkdar artisti, Azərbaycan Milli Konservatoriyasının İnstrumental muğam kafedrasının müdiri, dosent Malik Mansurov keçib.



İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov giriş sözü ilə çıxış edərək ali təhsil ocağında keçilən onlayn dərslərin müəllim və tələbələrin təcrübəsində artan rolu haqqında məlumat verib.

Azərbaycan Respublikasının Əməkdar artisti Malik Mansurov muğamlarımız haqqında ətraflı danışıb, “Bayatı-Şiraz” muğamından ətraflı bəhs edib. O vurğulayıb ki, bu muğam XIX əsrin sonlarınadək “Bayatı-İsfahan” dəstgahı kimi tanınıb, sonra sərbəst muğama çevrilib. Bildirilib ki, “Bayatı-Şiraz” muğamı öz gözəl, axıcı melodikasına və dərin təsir qüvvəsinə görə musiqiçilər tərəfindən çox zaman “ərusi-musiqi” (“musiqinin gəlini”) adlandırılır.

Sonda mövzu ətrafında çıxışlar olub, suallar cavablandırılıb.

**Telli MUSTAFAYEVA**

# Əmək yarmarkası keçirilib



*Bu münasibətlə Kəngərli rayonunda təşkil olunan tədbiri giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov açaraq muxtar respublikada əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən danışıb.*

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”ndan irəli gələn məsələləri əsas götürərək, aparılan səmərəli və məqsədyönlü işin nəticəsidir ki, son illər yüzlərlə sakin yeni iş yerləri ilə təmin olunub, onların maddi-rifah halı və sosial vəziyyəti yaxşılaşdırılıb.

Bildirilib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin məşğulluğunun təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də rayonlardakı məşğulluq mərkəzlərinin xətti ilə təşkil edilən əmək yarmarkalarıdır. Mərkəzlər fəaliyyət göstərdikləri ərazilərdə dövlət qurumları, emal və istehsal müəssisələri ilə sıx əlaqə saxlayır, həmin təşkilatlarda olan boş iş yerləri barədə məlumatlar toplayır və əmək yarmarkalarında həmin yerləri işaxtaran vətəndaşlara təqdim edirlər.

Tədbirdə rayon İcra Hakimiyyəti aparatının əməkdaşı Kənan Məmmədov çıxış edərək bölgədə əhalinin məşğulluq məsələlərinin həlli istiqamətində görülən işlərdən danışıb.

Sonra yarmarkaya gələnlər boş iş yerləri ilə tanış olublar. Yarmarkaya 10-u özəl müəssisə, 9-u isə dövlət orqanı olmaqla, ümumilikdə, 19 qurumdan 99 boş iş yeri çıxarılıb. Boş iş yerlərindən 85-i dövlət, 14-ü isə özəl sektora aid olub. Əmək yarmarkasında 28 nəfərə işə göndəriş verilib.

**Babək İSMAYILOV**

*Qədim zamanlardan Azərbaycan ailəsinin ən ali və müqəddəs dəyərlərindən biri də ata-anaya, ağsaqqala, ağbirçəyə hörmət və dərin ehtiram olub. Müqəddəs dinimiz də köməyə ehtiyacı olanlara qayğı göstərməyi tövsiyə edib. Ulu əcdadlarımızın bu adətinin zamanın sınağından çıxaraq bizim dövrümüzədək gəlib çatması və bu gün də muxtar respublikamızda bu dəyərlərin yüksək səviyyədə yaşadılması hər birimiz üçün sevindirici və qürurvericidir. Bunun ifadəsini könüllülük hərəkatı bir daha təsdiq edib.*

*2020-ci il "Könüllülər ili"dir*

# Könüllülük əməksevərliyin, insansevərliyin dəyəridir

İki ilə yaxındır ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Sosial Könüllülük Akademiyası yaradılıb. Akademiyanın yaradılmasında əsas məqsəd könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətinin təşviqi, bu prosesə gənclərin qoşulmasının təmin edilməsi, sosial sahədə çalışacaq könüllülərin yetişdirilməsi və gələcəkdə onların dövlət qurumlarında işlə təmin olunmasından ibarətdir. Respublikamızda 2020-ci ilin "Könüllülər ili" elan olunması isə gənclərin fəallığını daha da artırıb. Müvafiq təlim-tədris proseslərini keçən akademiya məzunlarının nazirliyin tədbirlərində iştirakı təmin edilir və onlar sosial sahədə həyata keçirilən xidmətlərlə yaxından tanış olurlar. Sosial könüllülərin iştirak etdiyi tədbirlər sırasında köməyə ehtiyacı olan tənha ahılların evlərinə hər həftə təşkil edilən və artıq ənənə halını almış ziyarətləri xüsusi qeyd etmək olar.



Ötən günlərdə Naxçıvan Muxtar Respublikası Sosial Müdafiə Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə bir qrup gənc könüllü Naxçıvan şəhərində yaşayan ahıl insanların evlərində görüşüb onlarla həmsöhbət olub.

91 yaşlı şəhər sakini Zərifə Vəzirova könüllülərin qayğısı ilə əhatə olunanlardan biridir. O, ömrünün ilini müəllimlik peşəsinə həsr edib. Zərifə müəllimə deyir ki, bu gün gənclərin məni ziyarət etməsi sevincimə səbəb olur. Yetişməkdə olan gənc nəslin bu cür layihələrə cəlb edilməsi çox gözəl addımdır. Onlarla həmsöhbət olanda qəlbim sakitlik tapır. Sevindirici haldır ki, muxtar respublikamızda istər ahıl insanlar, istərsə də sosial qayğıya ehtiyacı olan hər bir vətəndaş dövlət qayğısı ilə əhatə olunub. Hər bir Azərbaycan gənci yaşlı, ahıl insanlara diqqət və qayğı göstərməyi özünə mənəvi borc hesab edir.

Belə insanlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq edən Zərifə xanım bildirdi ki, dövlətimiz tərəfindən onun səhhəti ilə maraqlanmaq üçün bir həkim və bir tibb bacısı da ayrılıb. Onlar mütəmadi olaraq Zərifə müəllimənin sağlamlığı ilə maraqlanırlar. Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ayrılmış sosial işçi də onun qulluğunda durur.

Sosial könüllülərin üz tutduğu növbəti ünvan isə Səkinə Adıgözəlovanın mənzili oldu. Səkinə nənə şəhərimizin tənha yaşayan 82 yaşlı sakinidir.

Onun söhbəti:

– Heç kimim yoxdur, – demirəm, çünki dövlətim var. Xalqının arxasında dayanan, onun qayğısını çəkən dövlətim. Artıq 20 ildir ki, mənə sosial xidmət göstərilir. Bir ildən artıqdır ki, bu işə könüllülər də qoşulub. Gənclərimizin yaşlılara belə yardım göstərməsi məni ürəkdən sevindirir. Pandemiyanın muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı muxtar respublikamızda da bir çox qabaqlayıcı tədbirlər görülüb. Dövlətimiz həmişə olduğu kimi yenə də öz vətəndaşının yanındadır. Çölə çıxa bilmədiyim üçün gündəlik tələbatım sosial könüllülər tərəfindən ödənilir. Onlardan biri yemək üçün lazım olanları alanda, digəri evimdə təmizlik işləri aparır. Aprel ayında dövlət başçısı bizim kimi insanlara sosial xidmət göstərən işçilərin əməkhaqqının biraylıq ikiqat ödənilməsi barədə sərəncam imzalayıb. Bu məni çox sevindirdi. Zəhmətkeş insanlarına, xalqına dəyər verən ölkə başçısı var olsun. İnanıram ki, Uca Yaradanın köməyi ilə bu çətinlikdən də üzüağ çıxacağıq.

Sosial könüllülərin ahıllara göstərdikləri xidmətlərlə tanış olduqdan sonra onlardan bir neçəsinin bu tədbirlər haqqında fikirlərini öyrəndik.

Çilənar Yusifova:

– Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlara cavanlar da, böyüklər də hörmətlə yanaşıb, məsləhətlərinə ehtiyac duyublar. Qocaların sərvəti qazandıqları həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür. Könüllülərin dəstəsinə qoşulmaqla nəcib və xeyirxah bir təşəbbüs göstərdiyimizə əminəm.

Aytac Cəfərova:

– Ahıllara qayğı milli mənəviyyatımızın tərkib hissəsidir. Buna görə də ölkəmizdə onlara həmişə xüsusi diqqət göstərilir, sosial müdafiəsi gücləndirilir. Bu gün də belə insanlara həm ev işlərində kömək etməyə, həm də nəsihətlərini dinləməyə gəlmişik. Biz gənclər dövlətimiz tərəfindən ahıl vətəndaşlarımıza göstərilən xidmətlərdə iştirak etməkdən çox məmnunuq. İnsanlara yardım etmək, hər hansı bir sahədə çalışmaq və bunların əvəzində hər hansı qarşılıq gözləməmək! Gördüyümüz işin dəyərlərindən biri də budur. Bunu anlayıb könüllü olanlar isə çox böyük ürəyə malik insanlardır.

Alsu Məmmədli:

– Bu layihə haqqında eşidəndə çox sevindim. Çünki ailəmizdəki böyüklərlə yanaşı, köməyə ehtiyacı olan tanımadığımız insanların da yanında olmaq, onların bir gününün xoş keçməsinin səbəbkarına çevrilmək qədər gözəl heç nə ola bilməz. Yaşlı nəslə, xüsusən də qocalara, ahıllara, ağsaqqallara dayaq durmaq, onlara köməklik göstərmək mənəvi borcumuzdur. Məhz bu hiss gənclərdə mühüm məsbət keyfiyyətlər yaradır. Onu da qeyd edim ki, artıq məzun olduğumuz Sosial Könüllülük Akademiyası bizə bu sahədə geniş imkanlar açır və biz də bu cür tədbirlərdə xüsusi istək və həvəslə iştirak edirik.

Hər bir insan öz həyat məramının, könlündəki arzu və diləklərin gerçəkləşməsi naminə yaşayır. Lakin hər hansı bir sahədə könüllü fəaliyyətlə məşğul olmağın insanın özü üçün könüllü nələrsə etməkdən bir fərqi var. O da xeyirxahlıq, humanizm prinsiplərini yaşatmağı gözəl bir ənənəyə çevirməkdir.

Ötən ay Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində sosial könüllülər və Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə onlayn görüş zamanı xüsusi karantin dövründə keçirilən tədbirlərdə fəal iştirak edən könüllülərin mükafatlandırılması da nəcib və xeyirxah əmələ verilən dəyərdir. Biz də onlara fəaliyyətlərində uğurlar arzulayırıq.

✍ **Telli MƏMMƏDOVA**

# Ekoloji tədbirlər diqqət mərkəzindədir



***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə sosial-ekoloji siyasət uğurla davam etdirilir.***

Ötən ay ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı 7 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 1 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Ordubad, Şərur, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 20-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, müəyyən çatışmazlıqlar da aşkar edilmişdir. Mövcud çatışmazlıqların aradan qaldırılması üçün icrası məcburi tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında aprel ayında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən Şir arxından hər birindən 8 su nümunəsi olmaqla, ümumilikdə, 24 su nümunəsi götürülmüş və 360 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Ötən ay bu ilin yaz əkin planına uyğun olaraq Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağının genişləndirilməsi məqsədilə 2 hektar sahədə yeni püstə bağı salınmış, nazirliyin tabeliyində olan tingçilik sahələrində ərsəyə gələn 850 püstə tingi ilə əkin aparılmış, ərazinin suvarılması üçün yeraltı damcılı suvarma sistemi quraşdırılmışdır. Həmçinin püstə bağında 65 hektar sahədə cərgələr arasında texnika vasitəsilə şum aparılmış, aqrotexniki qulluq göstərilmişdir. Ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, Uzunoba Su Anbarının yuxarı hissəsindəki meyvə bağlarına üzvi gübrə verilmiş, Naxçıvan Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksinin ətrafında, Uzunoba, Xal-Xal, Badaşqan, Kültəpə, Yeniyol, Pircuvar, Rüstəm Dövlət Meşəsi ərazilərində suvarma aparılmışdır. Hesabat dövründə Arpaçay Dövlət Təbiət Yasaqlığı ərazisində 0,2 hektar sahədə yeni tingçilik sahəsi yaradılmış, Ordubad Milli Parkı ərazisində 5 hektar sahədə badamça, alça, yemişan, həmərsin toxumları ilə əkin işləri aparılmışdır.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir. Hesabat dövründə Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, kameral və ümumi xarakterli işlər uğurla yerinə yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında müvafiq sərəncamların icrası məqsədilə nazirliyin hamiliyinə verilmiş ixtisasların tələbələri ilə onlayn bağlantı qurularaq Sədərək Rayon Su Monitorinq Laboratoriyasında sularda aparılan laborator analizlər haqqında geniş məlumat verilmiş, tələbələri maraqlandıran mövzular ətrafında müzakirələr aparılmışdır. Bu cür onlayn görüşlərin keçirilməsi bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Yüngül atletika üzrə birincilik keçirilib



*Naxçıvan Muxtar Respublika Stadionunda 15 İyun – Milli Qurtuluş Günü münasibətilə 18 yaşadək sağlamlıq imkanları məhdud olan uşaqlar arasında keçirilən yüngül atletika üzrə birinciliyə yekun vurulub.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının Naxçıvan şəhər bölməsinin birgə təşkil etdiyi birincilikdə 10 idmançı mübarizə aparıb.

Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilən yarışda 100 metr məsafədə Kənan Fətullayev qalib adını qazanıb. İlqar Əbilov ikinci, Caner Rəhimov isə üçüncü olublar.

Sonda yer tutan və fərqlənən idmançılar mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

# Ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyi tədbirlərinə əməl edək

*Hər il olduğu kimi, bu il də muxtar respublikamızda taxıl tədarükünə ciddi hazırlıq işləri aparılır. Bunun üçün, ilk növbədə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun rayon bazalarında "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri ilə birgə biçinə cəlb olunacaq kombaynlarda və digər kənd təsərrüfatı texnikalarında yanğın-texniki müayinələr aparıb, 9 un dəyirmanı və 2 yem anbarında yanğın təhlükəsizliyinin vəziyyəti yoxlanılıb.*

Qeyd edək ki, biçin dövründə taxıl zəmilərində yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi üçün vətəndaşlar, torpaq mülkiyyətçiləri və sahibkarlar müxtəlif təhlükəsizlik tədbirlərinə əməl etməlidirlər. Belə ki, biçinə hazırlıq dövründə hər bir mexanizator, sürücü kənd təsərrüfatı texnikalarını yanğına qarşı texniki müayinədən keçirməli, həmin texnikalar ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli və bundan sonra sahələrə buraxılmalıdır.

Məhsul yığımında iştirak edən bütün texnikaların mühərriklərinin atqı boruları qığılcımsöndürənlərlə təmin olunmalı, kollektorların birləşmə hissələrində və atqı borusunun ara qatlarında zədələnmələr aradan qaldırılmalıdır. Mühərrikin çıxış kollektoruna küləşin düşməsinin qarşısını almaq məqsədilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir. Texnikaların akkumulyator batareyaları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərtilə şumlanmalıdır. Biçilmiş ot-taxıl zəmilərdən ən azı 30 metr məsafədə tayalanmalıdır. Biçin zamanı taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılmasına, texnikalara yanacağın doldurulmasına yol verilməməlidir.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən taxıl zəmilərində baş verə biləcək yanğınlara çevik reaksiya verilməsi məqsədilə əlverişli yerlərdə və intensiv biçin aparılan sahələrdə yanğınsöndürmə heyətlərinin və magistral yol kənarlarında motoxilasedicilərin xidmətinin təşkil edilməsi, taxıl zəmilərində işləyən kombaynlara gündəlik olaraq yanğın təhlükəsizliyi şöbələri əməkdaşlarının növbətçilik əsasında nəzarəti planlaşdırılıb. Bundan əlavə, taxıl biçininə hazırlıq dövründə bütün yanğınsöndürmə avtomobilləri yaşıl süpürgələrlə təmin edilib və ehtiyat yaradılıb.

*Biçin dövründə taxıl zəmilərində yanğın hadisəsi baş verdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya yanğın təhlükəsizliyi şöbələrinin **"101"** xidməti telefonlarına zəng etməyi xahiş edirik.*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


**Bildiriş**

"Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqı MMC (VÖEN-0200622591), "Dizayn İnşaat" MMC (VÖEN-0200615561), "Dizayn Sənaye Kompleksi" MMC (VÖEN-0200615431), "Dizayn Mebel" MMC (VÖEN-0200471651), "Dizayn Beton Məmulatları Kompleksi" MMC (VÖEN-0200615301), "Dizayn Nəqliyyat" MMC (VÖEN-0200620621) və "Dizayn" MMC (VÖEN-0200225681) fəaliyyətlərini dayandırdığından ləğv olunur.

**İtmişdir**

Şərur rayonu, Cəlilkənd sakini Həsənova Tovuz Niftalı qızının adına olan JN-402A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 430